# Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2021-ci il "Nizami Gəncəvi İli" çərçivəsində Azərbaycanın dahi şairinin həyat və yaradıcılığına hörmət rəmzi olaraq, Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2021-ci il*